MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ

Fariz Xəlilli
Tarix üzrə fəlsəfə doktoru
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.304

Milli Azərbaycan Tarixi Muzeyində Mingəçevir, Xarabagilan və Şirvanşahlar Sarayında qəbirlərdən aşkar olunmuş müxtəlif dövrlərə aid qədim parçalar (geyim hissələri) mühafizə edilir. Azərbaycanda toxuculuğun tarixi qədimdir.

Eneolit dövrü (e.ə. VI-IV minilliklər) və İlk tunc dövrünə (e.ə. IV-III minilliklər) aid saxsı, daş və sümük əyircəklər, həmçinin sümük və mis iynələr, bizlər toxuculuğun ilkin əlamətləri kimi çıxış edir və ev sənətkarlığı çərçivəsində bu sahənin artıq formalaşmağa başladığını göstərir [1].

Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən ən qədim parça və sap nümunələri Mingəçevir ərazisində Son tunc və ilk dəmir dövrünə (e.ə. XIII-VIII əsrlər) aid qəbirlərdən aşkar olunmuşdur [2, s. 152]. Bu nümunələr əsasən yun və kətan materiallarından hazırlanmışdır. Bəzi hallarda metal bəzək əşyalarının üzərində parça izlərinə də rast gəlinir ki, bu da qədim dövrlərdə toxuculuğun və geyim mədəniyyətinin inkişaf səviyyəsi haqqında mühüm məlumat verir.

Mingəçevir ərazisində ilk orta əsrlərə (III-VII əsrlər) aid yaşayış yerləri və qəbirlərdən aşkar olunmuş parça nümunələri daha yaxşı qorunmuş vəziyyətdədir. Bu nümunələr əvvəlki dövrlərlə müqayisədə daha iri ölçüdə olub, toxuculuğun inkişaf səviyyəsini daha aydın nümayiş etdirir. Belə parçalardan birinin üzərində müxtəlif həndəsi və nəbati naxışlar aydın seçilir [AF 493]. Onun ölçüsü 30×39 sm-dir.

Çoxlu miqdarda yun, ipək, pambıq və kətan parça nümunələrinin tapılması, eləcə də onların toxunma üsullarının müxtəlifliyi ilk orta əsrlər dövründə Azərbaycan ərazisində toxuculuğun artıq inkişaf etmiş bir sənət sahəsinə çevrildiyini və yerli əhalinin təsərrüfatında mühüm yer tutduğunu göstərir [7, s. 86]. Azərbaycana kənarda toxunmuş ipək parça nümunələri də gətirilmişdir və belə zərif parçaların əsasən Çindən gətirildiyi ehtimal olunur.

Qədim dövr parçaları təbii boyalarla - marena, yovşan, qoz, nar və soğan qabığı vasitəsilə rənglənmişdir. Bunu həm etnoqrafik müşahidələr, həm də yazılı mənbələr təsdiq edir [5, s. 72]. Bu parçaların toxunmasında istifadə edilən dəzgah - yer xanası da arxeoloji qazıntılar zamanı aşkar edilmişdir [3, s. 152].

Mingəçevir ərazisində, Kür çayının sol sahilində yerləşən III yaşayış yerində (48/54-cü kvadrat) 1,5 metr dərinlikdə üç monqol qəbiri aşkar olunmuşdur. Bu qəbirlər XIII-XIV əsrlərə aid edilir. Qəbirlərdən ipək parçalar, xalatlar, dəmir ox və nizə ucluqları, tozağacından hazırlanmış oxqabı, dəmir payza, saxsı yəhər qalıqları, mis toqqa bəzəklər və digər əşyalar tapılmışdır. Bu tapıntılar içərisində iki ədəd monqol xalatı [AF 2545] və ölçüsü 115×90 sm olan iri ipək parça nümunəsi [AF 2547] xüsusi maraq doğurur.

1979-cu ildə Xarabagilan ərazisində dəfinə axtaranlar tərəfindən üzərində türbə olan bir sərdabə qarət edilmişdir. Bundan sonra yerli əhalinin də kütləvi şəkildə həmin əraziyə axışması və sərdabədə hər şeyin alt-üst edilməsi nəticəsində tabutların ilkin vəziyyətini və buradan hansı materialların aparıldığını müəyyən etmək mümkün olmamışdır.

1980-ci ildə Xarabagilan arxeoloji ekspedisiyası sərdabə və onun ətrafında arxeoloji tədqiqat işləri aparmış və olduqca maraqlı faktlar aşkara çıxarmışdır [6, s. 394]. Ətrafdan tapılan dekorativ kərpiclər və mavi kaşılar üzərində Qurani-Kərim ayələrinin yazılması, həmçinin altıbucaqlı və dördbucaqlı kərpiclər üzərində Məhəmməd Peyğəmbərin (s.ə.s) və xəlifələrin - Ömər, Əbubəkr və Əlinin adlarının qeyd olunması türbənin müsəlman şəxsə aid olduğunu göstərir.

Buna baxmayaraq, mərhumların taxta tabutlarda, geyim, silah, bəzək və digər əşyalarla birlikdə dəfn olunması diqqətəlayiqdir [6, s. 396]. Arxeoloq Bəhlul İbrahimli tarixi mənbələrə və sərdabədən əldə edilmiş materiallara əsaslanaraq belə nəticəyə gəlmişdir ki, bu türbə islamı qəbul etmiş, lakin qədim monqol dəfn ənənələrini qoruyub saxlayan Hülakülər dövləti dövrünə aid bir zadəgana məxsus olmuşdur [6, s. 396].

Həmin sərdabədən aşkar olunmuş 6 ədəd müxtəlif parça nümunəsi Bəhlul İbrahimli tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilmişdir. Bu parçalar zərifliyi və rəng çalarlarının zənginliyi ilə diqqəti cəlb edir. Nümunələrin bir hissəsi qızıl və gümüş saplarla işlənmişdir ki, bu da onların yüksək sənətkarlıq səviyyəsini göstərir. İpək parçalardan birinin (ölçüsü 25×58 sm) üzəri müxtəlif rəngli üçləçək gül motivləri ilə bəzədilmişdir [AF 2717]. Azərbaycan xalçaçılığı naxışlarını xatırladan yun parça nümunəsi (30×9,5 sm) isə daha qalın quruluşa malikdir [AF 2716].

Digər ipək parça (40×12 sm) üzərində nöqtəvari (üçnöqtəli) naxışlar müşahidə olunur [AF 2715] və kənarları haşiyəlidir. Bu tip ornamentlərin Səlcuqlar dövləti dövründə "çintəmani" adı ilə tanındığı məlumdur. Üzərində kufi xətli ərəb hərfləri ilə ornamentlər işlənmiş ipək parça (42×42 sm) qırmızı rəngin ahəngi ilə seçilir [AF 2714]. Qızıl və gümüş saplarla işlənmiş digər parça nümunəsinin (6,5×3 sm) isə əsasən saçaq hissələri qorunub saxlanılmışdır [AF 2719]. İpək parçalardan biri də (6×4 sm) parlaq yaşıl zolaqları ilə seçilir [AF 2718]. Bu nümunələr orta əsr toxuculuq sənətində istifadə olunan materialların, texnikaların və bədii-estetik zövqün yüksək inkişaf səviyyəsini əyani şəkildə nümayiş etdirir.

Orta əsr kətan parçalarının iki nümunəsi Bakı şəhərində yerləşən Şirvanşahlar Sarayı kompleksinə daxil olan türbədən aşkar edilmişdir və XV əsrə aid edilir. Nisbətən yaxşı qorunmuş nümunələrdən birinin üzəri işləməli olub, digəri isə zəif mühafizə olunduğundan ciddi şəkildə zədələnmişdir. Bu parçaların I Xəlilullahın anasının qəbirindən əldə edildiyi məlumdur. Bu tapıntıların əksəriyyəti Milli Azərbaycan Tarixi Muzeyi-nin ekspozisiyasında nümayiş etdirilir. Həmin parçaların böyük bir hissəsi haqqında 2008-ci ilin oktyabr ayında Mərmərə Universiteti-ndə keçirilmiş "Tarixdə və Arxeologiyada Boyama" adlı beynəlxalq konfransda məruzə olunmuş və bu materiallar dünya üzrə boya üzrə mütəxəssislərin böyük marağına səbəb olmuşdur [4, s. 54]. Son illərdə bu arxeoloji parçaların bir qisminin (cəmi 12 nümunə) boyaları Mərmərə Universiteti mütəxəssisləri - Türkan Yurdun (Əczaçılıq fakültəsi, farmasevtik toksikologiya şöbəsi) və Rəcəb Qaradağ (İncəsənət fakültəsi, Təbii boyalar laboratoriyası) tərəfindən kimyəvi analizə cəlb edilmiş və maraqlı nəticələr əldə olunmuşdur.

2017-ci ildə Şamaxı rayonu Dəmirçi kəndində Gəgəli yaylağı nekropolunda tədqiq olunmuş 10 və 11 saylı qəbirlərdə skeletlərin başı altında Roma istehsalı olan gümüş nimçələr aşkar edilmişdir. Bu tapıntılar həmin dövrdə bölgənin Roma imperiyası ilə iqtisadi və mədəni əlaqələrinin mövcudluğunu göstərən mühüm arxeoloji sübutlardandır. Elmi baxımdan xüsusi əhəmiyyət daşıyan faktlardan biri isə 10 saylı qəbirdəki nimçənin içərisində, yaşı 40-dan yuxarı olan bir insana məxsus skeletin başı altında parça qalıqlarının aşkar olunmasıdır. Bu nümunə Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılmış ən qədim parça qalıqlarından biri hesab edilir və qədim toxuculuq ənənələrinin öyrənilməsi üçün mühüm mənbədir. Həmin

skeletin yanında uzunluğu 65 sm olan dəmir qılınc və 35 sm uzunluğunda dəmir xəncər də tapılmışdır. Bu tapıntılar göstərir ki, qəbir yüksək statuslu bir şəxsə - ehtimal ki, sərkərdə və ya cəmiyyətdə nüfuz sahibi olan hərbçiyə məxsus olmuşdur. Maraqlıdır ki, 11 saylı qəbirdə də eyni ənənə müşahidə olunur: skeletin başı altına gümüş nimçə yerləşdirilmişdir. Bu isə həmin şəxsin də cəmiyyət daxilində xüsusi mövqeyə malik olduğunu ehtimal etməyə əsas verir. Parça hazırda Milli Xalça Muzeyində mühafizə edilir [12].

2010-cu ildə Orta əsr Ağsu şəhər yerindən aşkar olunmuş arxeoloji materiallar içərisində parça və boyaq nümunələri xüsusilə maraq doğurur. III qazıntı sahəsindən tikiş sexi adı verdiyimiz binadan çox sayda qayçı, oymaq, iynə, biz, düymə və ip yumaqları tapılmışdır. Qayçı dəmirdən olub, nisbətən salamat qalmışdır. Oymaqlar 8 ədəd olub, biri sümükdən, qalanları misdən idi. İynə və bizlər də misdən hazırlanmışdır. Düymələr əsasən sümük və pastadandır. Pasta düymələr firuzəyi rəngdə olub, iki və ya dörd deşiklidir. İki ədəd kiçik yumağın ipi ağ rəngdə olub, pambıqdandır. Analizin nəticəsində onların rəngsiz olduğu, boyanmadığı məlum oldu. V qazıntı sahəsində məscidin qərb divarında xeyli salamat qalmış qab-qacaqla yanaşı kətan parçanın qalığı aşkar edilmişdir. Qəhvəyi rəngli parçanın ya çuvalın hissəsi, ya da yuyulub yığılmış qabların üzərinə sərilmiş parçanın hissəsi olduğu güman edilir. Hər iki ehtimalda parça qalığının qab-qacağa birbaşa aid olduğu görünür [11].

Tikiş sexinin yanında, şərq tərəfdə kiçik boyaq dükanı aşkar edilmişdir. Boyaq dükanında 4 ədəd boyaq küpü, 1 ədəd iri su küpü var idi. Boyaq küplərinin içərisi qırmızı rəngli boya ilə örtülmüşdü. Küplərin ətrafında torpağa da xeyli boyaq qarışmışdı. Həm küplərdəki, həm də torpağa qarışmış boyaq nümunələri Türkiyə Cümhuriyyəti Türk Kültür Vakfı Təbii Boyaq Laboratoriyasında Prof.Dr. Rəcəb Qaradağ və Əminə Torqan tərəfindən HPLC DAD üsulu ilə analiz olunmuşdur [10]. Bu tədqiqatda onlara göndərilmiş hər bir nümunənin analizi tərs fazalı yüksək effektli maye xromatoqrafiyasında aparılmışdır. Analizin sonunda nümunələrdəki boyaq maddələri standart maddələrlə qarşılaşdırılmışdır. Ağsu, 2010-cu il, 8b kvadratı, torpaq və Ağsu, 2010-cu il, 8b kvadratı, boyaq küpü nümunələrində alizarin və purpurin, Ağsu, 2010-cu il, 3b kvadratı, torpaq və Ağsu, 2010-cu il, 8b kvadratı, boyaq küpü nümunələrində alizarin boyaq maddələri tapılmışdır. Aşkar edilən boyaq maddələrinə görə nümunələrin mənbəsinin boyaqotu bitkisi - Rubia tinctorum L. (türk dilində kökboya, ingilis dilində madder, rus dilində marena) olduğu üzə çıxmışdır.

Rəsmi vergi sənədlərindən məlumdur ki, orta əsr Ağsu şəhərində çox sayda boyaqçı yaşayırdı. Ağsu şəhərindən alınan verginin yarısından çoxusunu həmin boyaqçılar ödəyirdilər. Rəsmi sənədlərlə arxeoloji tədqiqatın bir-birini tamamlaması Azərbaycanın boyaqçılıq mərkəzlərindən birinin öyrənilməsi kimi əhəmiyyətini və beynəlxalq elmi ictimaiyyətin marağını bura artırır.

Azərbaycanda təbii boyaqçılığın tarixi olduqca qədimdir. Zəngin bitki örtüyü və erkən mədəniyyət mərkəzlərindən biri olması bu sənət sahəsinin formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir. Toxuculuq, xalçaçılıq, dəriçilik və digər sənətkarlıq sahələri inkişaf etdikcə boyaqçılığa olan tələbat da artmışdır. Orta əsrlərdə avropalı səyyahların qeydlərində də göstərildiyi kimi, Azərbaycanın iri şəhərlərində boyaqçılıq yüksək səviyyədə inkişaf etmişdir. Səfəvilər dövləti dövrünə aid mənbələrdə iri boyaqçı emalatxanalarının fəaliyyəti qeyd olunur və onların əsasən yerli xammaldan istifadə etdikləri vurğulanır [8].

Azərbaycan ərazisi boyaqotu və qırmız kimi zəngin təbii boyaq mənbələri ilə tanınmışdır. X əsr ərəb coğrafiyaçısı İbn Hövqəl Varsan, Bərdə, Bab əl-Əbvab vilayətləri, Xəzər dənizi adaları, həmçinin Kür çayı və Araz çayı hövzəsində boyaqotu istehsalının geniş yayıldığını qeyd etmişdir. XIII əsrin əvvəllərində isə Yaqut Həməvi Kürün mənsəbinə yaxın Xəzər adalarında boyaqotu əkildiyini yazmışdır.

Parisli tacir Jean Baptiste Tavernier XVII əsrdə Səfəvilər dövlətində boyaqotu istehsalının mərkəzlərindən biri olan Astabad haqqında yazırdı: "Astabat kiçik, amma çox gözəl bir şəhərdir. Dörd karvansarayı, hər evdə su quyusu vardır. Bol su torpağı çox məhsuldar edir, xüsusilə çox gözəl şərablar hazırlanır. Bura dünyanın ronas (boyaqotu) yetişən tək ölkəsi olub, İranda və Hindistanda bu bitkinin böyük bir bazarı var. Ronas torpaq içində meyan kökü kimi yayılan və əsla ondan böyük olmayan kökə sahibdir. Qırmızı boyaq verir və Böyük Moğol ölkəsindən gələn bütün parçalar da bu maddə ilə boyanır. Torpaqdan uzun parçalar halında çıxarılsa da, daha yaxşı qablaşdırmaq və bu malların daşındığı torbalara daha yaxşı yığmaq üçün əl böyüklüyündə kəsilirlər. Hörmüzə - buradan qayıdan gəmilərə yüklənərək Hindistana göndərilmək üçün - başdan-ayağa ronas yüklənmiş karvanların gəldiyini görmək çox qəribədir. Bu kök güclü şəkildə və sürətlə boyamaq təsirini daşıyır. Mən Hörmüzdə olarkən diqqətsizlik üzündən parçalanan ronas yüklənmiş bir hind qayığındakı torbaların suda üzdüyü sahil boyunca dəniz bir neçə gün qıpqırmızı boyanmışdı" [9]. Astabat şəhərinin qalıqları hal-hazırda Naxçıvan Muxtar Respublikasının Babək şəhəri yaxınlığındadır.

Azərbaycanda geyim və parça ilə bağlı sənət sahələrinin - toxuculuq, boyaqçılıq və digər sahələrin tarixinin öyrənilməsində arxeoloji tapıntıların elmi tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР. – Баку: Элм, 1982. – 315 с.
2. Асланов Г. М., Ваидов Р. М., Ионе Г. И. Древний Мингечаур. – Баку: Элм, 1959. – 240 с.
3. Ашурбейли С. Ремесла и торговля раннесредневековых городов Азербайджана. – Баку: Элм, 1984. – С. 152.
4. Khalilli F. S. Textile and dyeing in 4th–14th centuries in Azerbaijan // 27th Meeting of Dyes in History and Archaeology (Istanbul, 8–11 October 2008). – Istanbul, 2008. – P. 54.
5. Кулиев М. М. Древнее ремесло Азербайджана и этноботаника // Материалы по истории Азербайджана. – Т. IX. – Баку: Элм, 1973. – С. 72.
6. İbrahimli B. İ. Ortaq taleli şəhərlər: Şəmkir // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı: I Respublika elmi-praktik konfransının materialları (28–29 noyabr 2007-ci il). – Bakı, 2008. – S. 392–400.
7. Vahidov R. M. Mingəçevir III–VIII əsrlərdə. – Bakı: Elm, 1961. – 162 s.
8. Гейдаров М. Города и городское ремесло Азербайджана XIII–XIV вв.: ремесло и ремесленные центры. – Баку: Элм, 1982. – 282 с.
9. Tavernier J. B. Tavernier səyahətnaməsi / red. S. Yerasimos; tərc. T. Tunçdoğan. – İstanbul: Kitab Yayınevi, 2010. – 344 s.
10. Emine Torgan, Recep Karadag, Gafar Jabiyev, Fariz Khalilli. HPLC-DAD analyses of dyestuffs displayed during archaeological excavations in medieval Agsu town // Science & Art of Color (Ramat-Gan, February 27–28, 2011). – Shenkar College of Engineering and Design, 2011.
11. Gafar Jabiyev, Fariz Khalilli. Orta asır Aksu şehri kazılarında tekstil ve boya örnekleri // III. Uluslararası Türk El Dokumaları (Tekstil) ve Gelenekli Sanatlar Kongresi (Konya, 30–31 Mayıs 2011). – Selçuk Üniversitesi Selçuklu Araştırmaları Merkezi, 2011.
12. Fariz Xəlilli. Ağsuda tərəkəmə obaları: axtaçılar, padarlar, kəngərlilər və qaraqoyunlular. – Bakı: Elm və Təhsil, 2018. – 192 s.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300